# Tələbələrin təlimə adaptasiya problemi və yaranan çətinliklərin psixoloji xüsusiyyətləri

**Nigar Məmmədova**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*ADPU*

**Rəyçilər:** psixol.ü.f.d., dos.M.C. İsmayılova,
psixol.ü.f.d., dos. U.M. Qəzvini

**Açar sözlər:** təlimə adaptasiya, həssaslıq, tələbənin statusu, psixoloji çətinliklər, özünüdərketmə

**Ключевые слова:** адаптация к обучению, чувствительность, статус студента, психологические трудности, самопознание.

**Key words:** adaptation to training, sensitivity, student status, psychological difficulties, self-consciousness

Ali pedaqoji məktəblərdə təlimə adaptasiyadakı çətinliklər probleminin həlli psixofiziologiyada onun mahiyyətini başa düşməyi tələb edir. Adaptasiya anlayışı XIX əsrdə yaranmışdır. Bu termin hələ qədim yunan sözü olan "adaptio"-yəni "alışma, uyğunlaşma, düzəltmə" mənalarını verən sözlərdən yaranmışdır.

D.A.Andreyeva belə hesab edir ki, adaptasiya uyğunlaşmadan sonra çətinliklərin aradan qaldırılmasıdır. Uyğunlaşmanın səviyyəsi daim dəyişir. Xarici mühit sisteminin digər elementləri dezadaptasiyanın yaranmasına xidmət edir. Sistemdə qeyri-sabitlik yarandıqda adaptasiya prosesi pozulur və dezadaptasiya meydana gəlir.

Psixoloji-pedaqoji tədqiqatlarda adaptasiya proses kimi nəzərdən keçirilir. Bu prosesdə subyektin yeni mühitə uyğunlaşması baş verir. Psixoloji adaptasiya insanın mühit ilə səmimi qarşılıqlı münasibətini prosesidir.

Adaptasiyadan danışarkən biz təkcə funksionallaşmış xarici şəraitdə şəxsiyyətin qarşılıqlı əlaqələrini deyil, həm də tələbənin inkişafını, onun özünüinkişafını nəzərdə tuturuq. Zənnimizcə, bütün bunlar ali məktəbdə təlimə adaptasiya mərhələsində yaranan çətinliklərin aradan qaldırılmasında az rol oynamır. Ali məktəb adaptasiyası tələbənin təlim-tərbiyə prosesində aktiv ünsiyyətə girməsi prosesi, ünsiyyət fəaliyyətinin yeni növlərinin mənimsənilməsində idraki fəaliyyətinin rasional təşkilində bacarıq və vərdişlərin formalaşmasıdır. Burada tələbələr fəallığın şüurlu subyekti kimi yeni təlim şəraitində öz funksiyalarını, habelə konkret situasiyada mənimsənilmiş norma və dəyərlərin iradi reallaşdırılması imkanlarını əldə edirlər.

Tədqiqatımızın üçün ilk növbədə pedaqoq və psixoloqların fikrincə, tələbələrin təliminin birinci mərhələsində tez-tez qarşılaşdırlası çətinliklərin müxtəlif zonalarını müəyyənləşdirməliyik. Ali məktəbdə təlimə adaptasiyadakı tipik çətinliklər haqqında tam təsəvvürlər əldə etmək üçün "çətinlik" anlayışının məzmununu nəzərdən keçirməliyik.

Tədqiqat işinin əsas məzmununun açılması üçün ilk növbədə "çətinlik" anlayışının mahiyyətini müəyyən etmək zəruridir. Çünki bu anlayışın mahiyyətini bilmədən onun təlim prosesində hansı formada təzahür etdiyini müəyyən etmək çətindir. Azərbaycan dilinin izahlı lüğətində "çətin" və "çətinlik" sözləri haqqında belə izahat verilmişdir:

— "çətin" (sifət)- icrası, həyata keçirilməsi, aradan qaldırılması, həlli, başa düşülməsi və s.

çox böyük zəhmət, səy, gərginlik tələb edən (asana zidd olan) anlayışdır;

— "çətinlik" (isim) – 1) çətinlik şeyin halı, çətin olma (asanlığa zidd); 2) maneə, əngəl; 3/ məhrumiyyət, əziyyət, məşəqqət; 4/ çətinliklə;

— "çətinləşdirmək" (feil) – 1) daha da çətin etmək, ağırlaşdırmaq; 2) daha da ağırlaşdırmaq, çətin etmək, işi gərginləşdirmək" [1, s. 433).

Pedaqoji lüğətdə "çətinlik" — şəxsiyyətin imkanları və fəaliyyətinin tələbləri arasında bəzən qeyri-müvafiqlik və təəssüratlar başa düşülür. Ola bilər ki, qısamüddətli psixi proses və ya vəziyyət, şəxsiyyətin xassələrində dəyişdirilmiş, öz imkanlarına inanmamaq, özünüqiymətləndirmənin aşağı olması və s. çətinliklər kimi təzahür edir.

T.S.Polyanova çətinlik anlayışının mahiyyətini belə izah edir: "Çətinlik-müəyyən fəaliyyətin yerinə yetirilməsi ilə bu yerinə yetirməni təmin edən bilik və bacarığın kafi dərəcədə olmaması arasındakı ziddiyyətin ifadəsidir" [4, s. 26].

Tədqiqatçı alim C.Alıyev qeyd edir ki, "Çətinlik - subyektin obyektlə qarşılıqlı təsiri, ünsiyyət zamanı birincinin ikinciyə hansı yolla və necə təsir göstərməyi müəyyənləşdirə bilmədiyi zaman gərginlik halıdır. Çətinlik mücərrəd məfhum kimi yalnız hərəkətlə bağlıdır. Bu anlayış fəaliyyət anlayışı ilə əlaqədar olaraq onunla birgə işlənir. Demək, çətinlik yalnız hər hansı fəaliyyət və hərəkətə münasibətdə yaranır" [2, s. 47].

Çətinlik çoxsahəli, çoxcəhətli olmaqla psixoloji mahiyyət kəsb edir. Çətinlik fəaliyyətin atributu olub psixoloji vəziyyətdir. Bu baxımdan çətinlik subyektin psixi və fiziki fəallığında təzahür edir. O, subyektiv məzmuna malik olan psixi halətdir. Tədqiqatçı alim C.Alıyev qeyd edir ki, çətinlik ambivalent xarakter daşımaqla ikili mənaya malikdir. Çətinlik istər praktik, istərsə də psixoloji məzmuna malik olub-olmamasından asılı olmayaraq nəticə etibari ilə subyektin psixikasında əks olunur. Bu anlayışların təhlili göstərir ki, psixoloji çətinliklər aşağıdakı şəkildə nəzərdən keçirilir:

— praktiki tərəfdən onun obyektiv məzmununu əks etdirən maneə kimi;

— psixoloji tərəfdən onun subyektiv məzmununu əks etdirən gərginlik, cəhd kimi;

— pedaqoji tərəfdən şəxsiyyətin imkanları ilə fəaliyyətin tələbləri arasında uyğunsuzluğun anlaşılması kimi.

Tədqiqatımızda tələbələrin təlimə adaptasiyasının *yüksək, kifayət qədər, orta və çox çətin səviyyələr*i fərqləndirilmişdir. Həmin səviyyələrə diqqət yetirək:

— *Birinci səviyyə* tələbələrin təlimə adaptasiyasının *yüksək səviyyəsidir.* Ali pedaqoji məktəblərdə tələbələrin təlimə adaptasiyasının yüksək səviyyəsi motivasiyanın müsbət tipi ilə xarakterizə olunur. Bu səviyyə biliklərdə yüksək sistematiklik, özünənəzarət, təlim prosesində yaranan çətinliklərin aradan qaldırılmasına hazırlıqla, habelə təlim fəaliyyətində iradi səyin yüksək təzahürü, yaradıcı tapşırıqların icrasına cəhd, idraki maraqların həyata keçirilməsi, fənlərin öyrənilməsində yüksək səviyyə ilə xarakterizə olunur. Burada idraki, şəxsi-inkişafetdirici və peşə dominant motivlərdir.

— *İkinci səviyyə* tələbələrin təlimə adaptasiyasının *kifayət qədər səviyyəsidir.* Kifayət qədər səviyyə demotivasiyanın müsbət tipini, təlimdə kifayət qədər fəallığı, təşəbbüskarlığı nəzərdə tutur. Bu səviyyə tələbələrin təlim-idraki fəallığa şəxsi maraqlarında, özünənəzarətin kifayət qədər səviyyəsində təzahür edir. İdraki, şəxsi-inkişafetdirici və peşə bu səviyyədə də dominant motivlərdir.

— *Üçüncü səviyyə* tələbələrin təlimə adaptasiyasının orta səviyyəsidir. Bu səviyyə iş üslubunun passivliyi, təlimdə motivasiyanın indifferent tipi, yalnız müəllimin dəstəyi ilə təlim-idraki fəallığın təzahürü, təlimdə yaranan çətinliklərin aradan qaldırılmasında iradi səyin təzahürü, təlim-idraki fəaliyyətdə şüurluluğun və arqumentlərin kifayət qədər olmaması,

informasiyaların rasional şəkildə işlənilməsinə kifayət qədər yiyələnməmək və s. ilə xarakterizə olunur.

— *Dördüncü səviyyə* tələbələrin təlimə adaptasiyasının çox çətin səviyyəsidir. Bu səviyyəyə aiddir: təlimə mənfi münasibət, fənnə sistematik marağın və məsuliyyətli münasibətin olmaması, təlim-idraki fəaliyyət prosesində qeyri-şüuri şəkildə psixoloji çətinliklərin təzahürü, idraki fəaliyyətdə əsaslandırma qabiliyyətinin aşağı olması. İnformasiyaların rasional şəkildə işlənilməsinə kifayət qədər yiyələnməmək, təlim fəaliyyətində fəallığın zəif təzahürü və s.

Tədqiqata ali pedaqoji məktəblərin istənilən ixtisaslarında təhsil alan tələbələrin qarşılaşdıqları psixoloji çətinliklər məzmunundan və yaranma səbəblərindən asılı olaraq didaktiki, sosial-psixoloji və peşə çətinlikləri qrupunda ümumiləşdirilmişdir:

I — *Didaktiki çətinliklər:*

— materialın həcminin və məzmununun kəskin dəyişilməsi. Bir mühazirə mətnində beş məktəb dərsi həcmində elmi materialların əhatə olunması;

— tədrisin forma və metodlarının rəngarəngliyi (buraya mühazirələr, seminarlar, kollokviumlar aid edilir) və s.

II — *Sosial-psixoloji çətinliklər*:

— vərdiş və bacarıqlarda yenidənqurma: köhnə həyat tərzinin yeni həyat tərzi ilə əvəz edilməsi, yaşayış mühiti, ictimai əhatə. Köhnə vərdişlərin, təsəvvür və əlaqələrin pozulması, yenilərin isə kifayət qədər möhkəm olmaması;

— müstəqil yetkin həyata kəskin keçidin başlanması. Yeni materiallarda psixoloji çətinliklərin təzahürü, özünəxidmətin artması;

III — *Peşə çətinlikləri:*

— ali məktəbin, ixtisasın düzgün seçilməməsində tərəddüdlük;

— tələbələr üçün uğurlu kiçik mikroiqlimin yaradılması və s.

Tələbələrin təlimə adaptasiyasının səviyyələri və psixoloji çətinlikləri ilə bağlı hazırladığımız xarakteristika bir daha təsdiq edir ki, ali pedaqoji məktəblərdə təlimə adaptasiyada yaranan çətinliklərin uğurlu həlli birgə təlim-idraki fəaliyyətdə müəllimin diferensial səyi, psixoloji-pedaqoji məsləhəti, təlimdə tələbələrin davranışı ilə bağlı korreksiya işi, tələbələrin fəallığının stimullaşdırılması və onların ali məktəblərdə təlimə adaptasiyası məsələsi ilə şərtlənir.

**Məqalənin aktuallığı.** Tələbələrin təlimə adaptasiyasındakı çətinliklərin vaxtında aradan qaldırılması mühüm problemdir. Odur ki, təlimə adaptasiyada yaranan çətinliklərin uğurlu həllinə böyük ehtiyac vardır.

**Məqalənin elmi yeniliyi.** Elmi məqalədə tələbələrin təlimə adaptasiyasının çətinliklərinin səviyyəsi araşdırılmışdır. Təlim prosesində yaranan çətinliklərin psixoloji xüsusiyyətlərini ardıcıllıqla tədqiq edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti. IV s.ş. Bakı: Elm, 1987.

2. Alıyev C.Q.Gənc müəllimlərin pedaqoji fəaliyyət prosesində qarşılaşdıqları çətinliklərin psixoloji təhlili. Bakı., Dissert., 1998.

3. Андреева, Д.А. О понятии адаптация: исследование адаптации студентов к

условиям учебы в вузе // Человек и общество. 2006.
4. Полякова Т.С. Анализ затруднений в педагогической деятельности начинающих учителей. М.: Педагогика, 1983 .

**Н. Мамедова**

## Проблема адаптации студентов к обучению и психологические особенности появляющихся трудностей

## Резюме

В научной статье раскрывается психологическая сущность проблемы адаптации к обучению. Дается научное изложение психологических особенностей трудностей, появляющихся в процессе обучения. В научной статье автором последовательно излагаются критерии, используемые при устранении психологических трудностей, образующихся при адаптации студентов к обучению. Автором исследован уровень трудностей адаптации студентов к обучению.

**N. Mammadova**

## Adaptation problem of students to training and psychological characteristics of difficulties

## Summary

Psychological essentiality of adaptation problem to training is explained in the scientific article. Scientific explanation of psychological characteristics of difficulties appearing in training process are given. Criteria used for prevention of psychological difficulties appearing in training adaptation of students are systematically interpreted by the author in the scientific article. Difficulty level of training adaptation of students has been researched by the author.

**Redaksiyaya daxil olub:** 26.04.2019